# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**YAP Sədrinin müavini ilə Kubanın Azərbaycandakı səfiri arasında görüş keçirilib**



3

# XIII Qlobal Bakı Forumu - mühüm beynəlxalq platforma




2

*Prezident İlham Əliyev: "Biz bu gün beynəlxalq diqqətin çatışmamasından əziyyət çəkirik"*


№ 023 (7433)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

14 mart 2026-cı il.
Qiymәti 1 manat


# 1995-ci ilin 13-17 mart hadisələri: Azərbaycan dövlətçiliyinə qarşı xəyanətkarlıq



6

**Ailədə hər kəsin ayrıca avtomobili: rahatlıq, yoxsa şəhərlərdə tıxacın əsas səbəbi?**



8

**Uşağı döyənlər cərimələnəcək: günah kimdədir?**



5

**Valideyn vəfat etdikdə əmlak necə bölünür?**



4

**Tramp elan etdi: neft qiymətləri yüksələndə ABŞ daha çox pul qazanır!**



7

**Suçiçəyi peyvəndi niyə dövlət xəstəxanalarında yoxdur?**



3

***Beynəlxalq münasibətlər sistemində güclü ölkə olan Azərbaycanın uğurlarının əsasında uzaqgörən və praqmatik xarici siyasət strategiyası dayanır. Azərbaycanın dinamik inkişafı, bütün sahələri əhatə edən məqsədyönlü islahatlar və əldə edilən nailiyyətlər beynəlxalq müstəvidə yüksək qiymətləndirilir. Bu gün ölkəmizin bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi deyil, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirakı, əlbəttə ki, çəkisinin göstəricisidir.***




# XIII Qlobal Bakı Forumu - mühüm beynəlxalq platforma

## *Prezident İlham Əliyev: "Biz bu gün beynəlxalq diqqətin çatışmamasından əziyyət çəkirik"*

Cox vacib beynəlxalq forumlara və tədbirlərə ev sahibliyi edərək, qlobal və regional sabitliyə töhfəsini verən Azərbaycan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri yüksək səviyyədə keçirməklə, dünyanın diqqətində olur. Sözsüz ki, bu cür tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir.

Artıq uzun illərdir Qlobal Bakı Forumu qlobal problemlərin təhlili, siyasi dialoqun təşviqi və beynəlxalq tərəfdaşlığın möhkəmləndirilməsi baxımından mühüm strateji platforma statusunu qazanıb. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsü ilə təşkil olunan bu tədbir müasir çağırışların həllinə və qlobal əməkdaşlığa əhəmiyyətli töhfələr verir. "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olunan budəfəki Forumda dünyanın müxtəlif regionlarından nüfuzlu siyasi xadimlər, o cümlədən fəaliyyətdə olan və sabiq prezidentlər, Baş nazirlər, həmçinin BMT strukturlarının rəhbərləri, alimlər və ekspertlər iştirak edirlər. Bu cür tədbirlər dünyada nüfuzu getdikcə artan və regionda aparıcı aktora çevrilən Azərbaycanın beynəlxalq nüfuzunu, beynəlxalq məsələlərin tənzimlənməsində mühüm rol oynadığını bir daha ortaya qoyur.

### "NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİ BU GÜN APARICI BEYNƏLXALQ TƏSİSATLARDAN BİRİDİR"

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq platformaya çevrilib. Mərkəzin təşkil etdiyi tədbirlərə marağın ildən-ilə artması da məhz bunun məntiqi nəticəsidir. Qlobal Bakı Forumu geniş fikir müxtəlifliyini təmsil edən insanları neytral və mehriban bir mühitdə bir araya gətirərək, onların dünyanın qlobal çağırışları ilə bağlı fikir mübadiləsi aparmasına imkan yaradır.

"Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu gün aparıcı beynəlxalq təsisatlardan biridir və burada bir çox məsələlər müzakirə olunur. Təşkilat yaxşı beynəlxalq nüfuza malikdir". Bu sözləri Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında deyib. Dövlətimizin başçısı bildirib ki, sistemli yanaşmaların, dəyişən beynəlxalq vəziyyətə aid olan məsələlərə mövqeyin formalaşmasında bu təşkilatın böyük rolu var.

Qeyd edək ki, bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda Mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Xüsusi vurğulamaq lazımdır ki, Qlobal Bakı Forumu dünya ictimaiyyətini dərindən narahat edən məsələlərin həlli yollarını araşdıran və bu istiqamətdə müzakirələr apara bilən müstəqil beynəlxalq platformaya çevrilib. Belə ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2013-cü ildən keçirilən Qlobal Bakı forumlarında dinlərarası, mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, bölgədəki digər münaqişə ocaqları ilə bağlı vəziyyət, etnik və digər zəmində baş verən münaqişələr və bir sıra digər qlobal problemlər geniş müzakirə edilib, onların həlli yollarının tapılması istiqamətində təhlillər aparılıb.

XIII Qlobal Bakı Forumu əvvəlki illərdə olduğu kimi, qlobal çağırışların həlli üçün geniş mövzu spektri və dərin müzakirələri ilə mühüm platforma rolunu oynayacaq. Burada aparılacaq diskussiyalar beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə, ortaq həll yollarının müəyyənləşdirilməsinə və sülhün təşviqinə töhfə verəcək.

Məlumdur ki, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan Ordusu 2023-cü ilin sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Düşmən ağ bayraq qaldıraraq təslim oldu. Bununla da Azərbaycanın bütün ərazilərində Konstitusiya quruluşu bərpa edilib.

Bu gün Azərbaycan regionda mühüm söz sahibi və sabitləşdirici qüvvə kimi çıxış edərək beynəlxalq əməkdaşlığın gücləndirilməsinə töhfə verir. 2020-ci ilin Vətən müharibəsində qazanılan tarixi Qələbə və ərazi bütövlüyünün bərpası ölkəmizə olan marağı daha da artırıb. Strateji coğrafi mövqeyi sayəsində Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən əsas nəqliyyat və logistika qovşağına çevrilib. Ölkəmiz qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında regionda sabitliyin və inkişafın təmin olunmasına çalışır. Prezident İlham Əliyevin qətiyyətli liderliyi, etibarlı siyasəti və yaradılan əlverişli biznes mühiti Azərbaycanın beynəlxalq nüfuzunun və tərəfdaş ölkələrlə əməkdaşlıq imkanlarının durmadan genişlənməsini təmin edir.

### "SABİTLİK MƏSƏLƏLƏRİ HƏR HANSI BİR ÖLKƏNİN GÜNDƏLİYİNDƏ HEÇ VAXT OLMADIĞI QƏDƏR BİR NÖMRƏLİ MƏSƏLƏ KİMİ QALMALIDIR"

Azərbaycan İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış edib. İki dövlət arasında münasibətlərin yaradılması üçün baza prinsiplərinə dair təklifi vasitəçilər tərəfindən Ermənistana təqdim edilib. "Forumun gündəliyi genişdir, bir çox məsələləri əhatə edir. Əminəm ki, müzakirələr zamanı diqqət məhz bizim regionumuzda və dünyadakı mövcud vəziyyətə yönələcəkdir", - deyən Prezident bildirib ki, təhlükəsizlik, sabitlik məsələləri hər hansı bir ölkənin gündəliyində heç vaxt olmadığı qədər bir nömrəli məsələ kimi qalmalıdır. Çünki bu olmadan bütün başqa şeylər mənasızdır. "Ermənistanla sülhdən sonra biz Orta Dəhlizin genişləndirilməsi üzərində sıx işləyirik və o da Ermənistanın ərazisindən keçir", - deyə Prezident Forumunun açılış mərasimindəki çıxışında bildirib ki, Ermənistan müstəqillik tarixində ilk dəfədir tranzit ölkə ola bilər: "Bu günə qədər bu, hələlik yoxdur. Bunun sayəsində biz Azərbaycanın əsas hissəsi ilə eksklavımız olan Naxçıvan Muxtar Respublikası ilə birbaşa bağlantını yarada biləcəyik", - deyə dövlətimizin başçısı əlavə edib. Dövlət başçımız onu da bildirib ki, Ermənistanla sülh yalnız kağız üzərində deyil. Mövcud Birgə Bəyannamə bir neçə ay əvvəl imzalanıb paraflansa da, biz artıq ərazidə sülh hiss edirik. Sərhədlərimizdə artıq atışmanın, qurbanların, itkilərin olmadığını vurğulayan dövlətimizin başçısı qeyd edib: "Biz müxtəlif istiqamətlərdən bütün yüklərin Ermənistana daşınmasına olan məhdudiyyətləri aradan qaldırmışıq. Biz Ermənistanla ticarətə və onlara ən vacib neft məhsullarının ixracına başlamışıq".

### "BİZ DAHA TARAZLAŞDIRILMIŞ, PROQNOZLAŞDIRILMIŞ NEFT QİYMƏTLƏRİNİN TƏRƏFDARIYIQ"

Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında dünyada neft və qazın qiymətlərindəki artıma toxunub. Dövlətimizin başçısı bununla bağlı deyib: "Biz neft və qaza olan qiymətlərin görünməmiş dərəcədə artımını müşahidə edirik. Bu da istehlakçılara bir zərbədir. Nəinki istehlakçılara, əgər kimsə düşünürsə ki, qeyri-tarazlı bu qiymətlər yalnız neft hasil və ixrac edən ölkələrin xeyrinədir, yox, bu, belə deyil". Prezident qeyd edib ki, biz daha tarazlaşdırılmış, proqnozlaşdırılmış neft qiymətlərinin tərəfdarıyıq.

Martın 14-dək davam edəcək XIII Qlobal Bakı Forumunda "Qlobal təhlükəsizlik və güc tarazlığı: Beynəlxalq hüquqa hörmət. Yeni məsələlər, yeni çağırışlar", "Çoxtərəflilik böhran içində: Qlobal əməkdaşlığı yenidən düşünmək", "BMT 80+", "Çin və Qlobal İdarəetmə Təşəbbüsü", "Danışıqlardan kənarda: COP-u yaşatmaq uğrunda mübarizə", "Orta Dəhliz və Avrasiya Bağlantısı Qapısı", "Afrika bu gün və sabah", "2030 gündəliyinin sürətləndirilməsi: İnklüziv inkişaf və davamlı əlaqəlilik", "Rəqəmsal gələcək: süni intellekt, idarəetmə və innovasiyanın etikası", "Mənzil üçün qlobal əməkdaşlıq: WUF13 üçün perspektivlər", "Beynəlxalq sisteminin yenidən qurulmasının axtarışında" mövzularında panellər təşkil olunacaq.

XIII Qlobal Bakı Forumunda keçiriləcək sessiyalar parçalanmış mövcud mənzərənin müxtəlif sahələrdə - hərbi güc, iqtisadi məcburiyyət, enerji asılılığı, texnoloji imkanlar, informasiya nəzarəti və strateji təchizat marşrutlarında necə təzahür etdiyini araşdıracaq. Müzakirələr, həmçinin yeni formalaşan sahələrin - kritik minerallar, təmiz enerji infrastrukturu, rəqəmsal bağlılıq və qabaqcıl texnologiyaların zəif tərəfləri necə dərinləşdirdiyini və dövlət siyasətini necə mürəkkəbləşdirdiyini nəzərdən keçirəcək.

XIII Qlobal Bakı Forumunda qlobal aktual problemlər, çoxtərəfli diplomatiya, çoxqütblü dünya nizamı, BMT-nin gələcək paktı, postmünaqişə dövründə bərpa-quruculuq işləri və orta güclərin yeni dünya düzənində rolu kimi vacib mövzular müzakirə olunur. Tədbir beynəlxalq liderləri bir araya gətirərək qlobal siyasət, təhlükəsizlik, texnologiya və sülh kimi məsələlərin müzakirəsinə şərait yaradır. Forumda yeni texnologiyalar, gender və təhlükəsizlik, iqlim dəyişikliyinin təsiri, qlobal səhiyyə böhranları və onların həlli yolları da diqqət mərkəzindədir. Göründüyü kimi, ildən-ilə iştirakçılarının sayı artan Qlobal Bakı Forumunun mövzularının əhatə dairəsi də genişlənir. Prezident İlham Əliyevin uzaqgörən və davamlı siyasəti nəticəsində Azərbaycan bu gün sabitlik və təhlükəsizlik adasına çevrilib. Ölkəmiz siyasi-ictimai sabitliyi, dinamik iqtisadi inkişafı, uğurlu xarici siyasəti və sosial rifah səviyyəsi ilə beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Azərbaycanın nüfuzu getdikcə artmaqla yanaşı, ölkə qlobal miqyasda sivilizasiyalararası dialoq və əməkdaşlığın mühüm platformasına çevrilib. Forumun Bakıda keçirilməsi də Azərbaycanın bu sahədə oynadığı strateji rolu və beynəlxalq arenadakı mövqeyini bir daha təsdiqləyir.

Azərbaycanın xarici siyasəti ölkənin milli təhlükəsizliyinin etibarlı təminatıdır. Müasir dövrdə dünya siyasətində dəyişikliklərin baş verdiyi, bəzən ədalətə, bəzən də ikili standartlara əsaslanan yanaşmaların müşahidə olunduğu bir dövrdə Azərbaycanın müstəqil siyasət həyata keçirərək, dəyişməz mövqeyini sərgiləyir

**Zümrüd BAYRAMOVA**

# YAP Sədrinin müavini ilə Kubanın Azərbaycandakı səfiri arasında görüş keçirilib





***Martın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Kuba Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyon arasında görüş keçirilib.***

Görüşdə dövlət başçıları – Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Kuba Respublikasının Prezidenti, Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Miqel Mario Dias-Kanel Bermudesin ölkələrimiz arasında bərabərhüquqlu tərəfdaşlıq prinsipinə əsaslanan ikitərəfli münasibətlərin inkişafına böyük önəm verdikləri vurğulanıb. İqtisadi, ticari, mədəni, tibb, təhsil, turizm, aqrar və digər sahələrdə səmərəli əməkdaşlıq üçün mühüm potensialın mövcud olduğu qeyd edilib.

İki dost ölkənin hazırda mürəkkəb geosiyasi şəraitdə - yeni dünya nizamına transformasiya ərəfəsində fəal və konstruktiv siyasət həyata keçirərək milli təhlükəsizliyin və dövlət maraqlarının qorunması ilə bağlı prinsipial mövqe nümayiş etdirdikləri bildirilib. Regional və beynəlxalq təhlükəsizliyə təhdid yaradan hallara qarşı qətiyyətli mübarizənin önəmi, həmçinin bütün məsələlərin dialoq və diplomatiya yolu ilə sülh şəraitində həllinin vacibliyi vurğulanıb. BMT, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində səmərəli işbirliyini davam etdirən Azərbaycan ilə Kubanın beynəlxalq hüquq normalarına əsaslanaraq bir-birinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə birmənalı dəstək verdikləri qeyd olunub.

Görüşdə dövlətlərarası münasibətlərin inkişafında Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyasının (KKP) rolu diqqətə çatdırılıb. 2025-ci ilin noyabr ayında YAP nümayəndə heyətinin Kubaya səfəri, eləcə də səfir Karlos Enrike Valdes de la Konsepsyonun ötən ilin oktyabrında YAP-ın ev sahibliyi ilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Bakıda keçirilən tədbirində KKP-ni təmsil etməsi məmnunluqla xatırlanaraq məhsuldar görüşlərin keçirilməsinin, faydalı fikir və təcrübə mübadiləsi aparılmasının, partiyalar arasında çoxşaxəli əməkdaşlığın əsas istiqamət və prioritetlərini müəyyənləşdirən Əməkdaşlıq Sazişinin imzalanmasının əhəmiyyəti qeyd edilib. Sazişdən irəli gələn vəzifələrin icra olunması nəticəsində qarşıda duran hədəflərin gerçəkləşdiriləcəyinə inam ifadə olunub. Görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər də müzakirə edilib.

# Adnan Əhmədzadənin cəzası əməllərinə adekvat olacaq

***Özünü diribaş, fərasətli iş adamı kimi təqdim edən, əslində iqtisadi diversiya ilə məşğul olan və bununla özünə milyonlarla dollar vəsait toplayan Adnan Əhmədzadənin həbs müddəti uzadılıb. Bununla bağlı Səbail rayon Məhkəməsində istintaq orqanın təqdimatına baxılıb. Təqdimat təmin edilib və Adnan Əhmədzadə barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti daha 2 ay uzadılıb.***



Məlumdur ki, Adnan Əhmədzadə ötən il sentyabrda Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşları tərəfindən saxlanılıb. Onun həbsi ölkə qanunlarını kobud şəkildə pozaraq "Azeri Light" markalı nefti digər xam neft məhsulları ilə qarışdırmaqda ittiham olunması ilə bağlıdır. Bu əməl Azərbaycanın neft sənayesinin etibarlılığına və bazar şəffaflığına ciddi zərbə kimi qiymətləndirilir. Söz yox ki, A.Əhmədzadənin ölkəsinə qarşı iqtisadi terror həyata keçirməsi öz ağlının və fəaliyyətinin nəticəsi olmayıb. O Azərbaycanın beynəlxalq aləmdə qazandığı etibarlı tərəfdaş, inam bəslənilən dövlət imicinə xələl gətirmək üçün xaricdən verilən sifariş əsasında fəaliyyət göstərib. Bu şəxs ABŞ-ın və Avropanın sanksiyalarına məruz qalan fars-molla rejiminin və Rusiyanın neftini saxta sənədlərlə xaricə daşıyıb və sözügedən ölkələrə milyonlar qazandırıb.

### A.Əhmədzadə Rusiyanın xüsusi xidmət orqanlarının göstərişlərini yerinə yetirib

Özəl araşdırmalarımız və ipucu olan məlumatlara görə, A.Əhmədzadə Rusiyanın xüsusi xidmət orqanları ilə geniş əlaqələrə, əməkdaşlıq münasibətlərinə malik olub. Onu bu fəaliyyətə ortaq edən isə Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev olduğu bildirilir. Tərəflər bir-birinə inam və etibar bəsləməklə əməkdaşlıq ediblər. Arabir A.Əhmədzadə R.Mehdiyevin sifariş verdiyi şəxslərə, o cümlədən AXCP sədri Əli Kərimliyə pullar ötürdüyü şübhəsidir. Eyni zamanda A.Əhmədzadə uzun illər R.Mehdiyevin Dubaydakı nəvəsinə pullar göndərib. Bu barədə verilən məlumatda qeyd olunur ki, Adnan Əhmədzadənin şirkətlərindən biri üzərindən sabiq PA rəhbəri Ramiz Mehdiyevin nəvəsinin Dubaydakı şirkətinə davamlı pul köçürmələri üzə çıxıb. Bildirilir ki, Adnan Əhmədzadə bu köçürmələrə Ramiz Mehdiyevin Prezident Administrasiyasının rəhbəri olduğu zamandan start verildiyini deyib. Bununla belə Adnan Əhmədzadə əlavə edib ki, Ramiz Mehdiyev Prezident Administrasiyasından kənarlaşdırılandan sonra ona bu əməliyyatı dayandırması barədə yuxarıdan hər hansı bir bildiriş gəlməyib. "Ona görə də pulköçürmə əməliyyatı son zamanlara qədər davam edib" deyə Əhmədzadə bildirib. İddialara görə, A.Əhmədzadə R.Mehdiyevin Dubaydakı nəvəsinin adına 70-80 milyon ABŞ dolları civarında pul köçürüb.

Görünən odur ki, uzun illər ərzində Azərbaycanın adından istifadə edən A.Əhmədzadə Rusiyanın xüsusi xidmət orqanları ilə əlaqələrə malik olub. Onun diversant kimi yetişdirilməsində də Rusiyanın rolu olub. Azərbaycan neftinə digər xam neft məhsulları ilə qarışdıraraq xarici bazarlara çıxarmaq isə yuxarıda qeyd etdiyimiz Azərbaycanın iqtisadi təhlükəsizliyinə qarşı terrordur. Cəzası da heç şübhəsiz əməllərinə adekvat olacaq.

ANALİZ

***İLHAM ƏLİYEV***

# Suçiçəyi peyvəndi niyə dövlət xəstəxanalarında yoxdur?



HƏKİM DANIŞDI

Suçiçəyi uşaqlar arasında ən geniş yayılan yoluxucu xəstəliklərdən biridir və xüsusilə məktəb və bağça kimi kollektiv mühitlərdə sürətlə yayılması ilə seçilir. Son dövrlərdə Azərbaycanda bu virusa yoluxma hallarının artması isə valideynlər və cəmiyyət üçün yenidən narahatlıq doğurur. Bəs, peyvənd niyə dövlət xəstəxanalarında yoxdur? Uşaqlar üçün risk nə qədərdir?

Məsələ ilə bağlı pediatr, infeksionist Aytən Ziyadova SİA-ya açıqlamasında bildirib ki, suçiçəyi virusu çox yoluxucu infeksion xəstəlikdir: "Yoluxma hava-damcı yolu ilə, yəni asqırma və öskürmə zamanı, həmçinin xəstənin səpkiləri ilə birbaşa təmas nəticəsində baş verir. Yoluxma xəstəliyin səpkiləri tam quruyub qabıqlaşana qədər davam edir. Son aylarda Azərbaycanda suçiçəyinə yoluxma hallarının artdığı müşahidə olunur. Bu xəstəlik xüsusilə uşaq yaş qrupları arasında daha çox yayılır və məktəb, bağça kimi kollektiv mühitlərdə sürətlə yayılması müşahidə edilir. Bəs, peyvənd mövcud olduğu halda, niyə Azərbaycan dövlət xəstəxanalarında yoxdur? Səbəb odur ki, Azərbaycanın Milli Peyvənd Təqviminə suçiçəyi peyvəndi daxil edilməyib. Hazırda bu vaksin dövlət xəstəxanalarında pulsuz şəkildə tətbiq olunmur, lakin bəzi özəl klinikalarda sifarişlə, ödənişli əsaslarla vurula bilər. Səhiyyə rəsmiləri isə qeyd edirlər ki, hazırda suçiçəyi peyvəndinin ölkəyə gətirilməsi və dövlət peyvənd proqramına daxil edilməsi məsələsi nəzərdən keçirilmir".



***Arzu Qurbanlı***

# YAP Sədrinin müavini ilə Belarusun ölkəmizdəki səfiri arasında görüş keçirilib





***Martın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Belarus Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviç arasında görüş keçirilib.***

Görüşdə Azərbaycan ilə Belarusun bir-birinin maraqlarına hörmət edən dost və tərəfdaş ölkə olduqları, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. Siyasi, iqtisadi, ticari, turizm, səhiyyə, elm, təhsil, mədəni-humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin dövlət başçıları - Prezident İlham Əliyev ilə Prezident Aleksandr Lukaşenkonun diqqət mərkəzində olduğu vurğulanaraq iki ölkənin qlobal müstəvidə bir-birinin mənafelərinin qorunmasına böyük əhəmiyyət verdikləri bildirilib. Beynəlxalq platformalarda qarşılıqlı dəstəyin müştərək strateji hədəflərin reallaşdırılması baxımından önəmi qeyd olunub.

Görüş zamanı Yeni Azərbaycan Partiyası ilə “Belaya Rus” Partiyası arasında əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri də müzakirə olunub. 2025-ci ilin may ayında YAP nümayəndə heyətinin “Belaya Rus” Partiyasının təşkilatçılığı ilə Minskdə keçirilən beynəlxalq partiyalararası konfransda, “Belaya Rus” Partiyası nümayəndələrinin isə YAP-ın təşkilatçılığı ilə ötən il Şuşada keçirilən beynəlxalq konfransda iştirakı məmnunluqla vurğulanıb. Ölkələrimizin səmimi dostluq münasibətlərinin hakim partiyalar arasında əlaqələrin inkişafına əlverişli zəmin yaratdığı qeyd olunaraq gənclər arasında da təmasların sıxlaşdırılmasının vacibliyi diqqətə çatdırılıb.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlərin də müzakirə olunduğu görüşdə səfir cari ilin may ayında “Belaya Rus” Partiyasının təşkilatçılığı ilə Brest şəhərində keçiriləcək “XXI əsrdə çoxqütblülük və müxtəliflik şəraitində dövlət suverenliyi və beynəlxalq münasibətlərin prinsipləri” mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün YAP nümayəndə heyətini ölkəsinə səfərə dəvət edib.

# Valideyn vəfat etdikdə əmlak necə bölünür?

***Azərbaycanda vərəsəlik məsələləri ailələr arasında ən çox müzakirə olunan hüquqi mövzulardan biridir. Xüsusilə valideynlərdən birinin vəfatından sonra əmlakın necə bölünməsi, kimin hansı paya sahib olması və bu paylardan imtina qaydası ilə bağlı tez-tez suallar yaranır. Bəs, ana təkbaşına qərar verərək evi istədiyi övladın adına keçirə bilərmi?***



*VƏKİL AÇIQLADI*

Məsələ ilə bağlı vəkil Elnur Məmmədov SİA-ya açıqlamasında bildirib ki, əgər valideynlərdən biri ölürsə və əmlak da onun adına olarsa, burada artıq vərəsəlik yaranır: ”Vərəsəliyin yaranmasının iki növü var: qanun üzrə vərəsəlik və vəsiyyətnamə üzrə vərəsəlik. Əgər ölüm halında vəsiyyətnamə yoxdursa, o zaman qanun üzrə vərəsəlik tətbiq olunur. Qanun üzrə vərəsəlikdə məsələlər belə həll olunur: əgər ata ölübsə və atanın adına əmlak varsa, həmin əmlak ata ilə ananın nikah dövründə alınıbsa, o zaman həmin əmlakın 50%-i anaya məxsus olur. Yəni vərəsəlik bölünəndə həmin 50% birbaşa anaya verilir. Yerdə qalan 50% isə ana da daxil olmaqla neçə nəfər övlad varsa, onların arasında bərabər şəkildə bölünür. Məsələn, 100 kvadratlıq evdir. Onun 50 kvadratı artıq anaya verildi, çünki nikah dövründə alındığı üçün onun əmlak payı var. Qalan 50 kvadrat isə, əgər 4 uşaq və 1 ana varsa, hərəsinə 10 kvadrat olmaqla bölünür.



Bu zaman həmin əmlakın övladlardan birinə verilməsi üçün kiminsə xüsusi bir üstünlüyü yoxdur — istər ananın, istərsə də o 4 övladdan hər hansı birinin. Əgər vərəsəlik açılırsa və tərəflər razılığa gələrsə ki, əmlak bir nəfərin adına keçirilsin, onda digər vərəsələr — yəni ana da daxil olmaqla — razılıq verərək öz paylarından imtina edə bilərlər. Məsələn, 50% anaya verildi və övladlar istəyir ki, qalan 50% də ananın adına keçsin. O zaman həmin 4 övlad vərəsəlikdə öz paylarından imtina barədə notarial qaydada ərizə yazırlar. Orada qeyd edirlər ki, biz öz payımızdan imtina edirik və payımızın anamıza verilməsini istəyirik. Bu formada mümkündür. Yaxud da ana istəyirsə ki, həmin paylar övladlardan birinə çatsın, onda digər övladların razılığı ilə ana həm öz 50% payından, həm də qalan 50%-dəki payından imtina edə bilər. Hansı övlada veriləcəksə, yenə də dediyim kimi, hər kəs yalnız öz payından imtina edir. Qalan paylardan isə digər pay sahibləri imtina edərək razılaşdıqları şəxsə verə bilərlər. Ümumilikdə vərəsəlikdə əgər kimsə öz payından imtina etmək istəyirsə, onun imtinası yalnız özünə düşən paya aiddir. Başqalarının payından imtina etmək hüququ nə anada, nə də digər övladlarda var”.

***Arzu Qurbanlı***

# “Qlobal problemlərin həlli yalnız bir sahəyə aid məsələ deyil“ - DENNİS FRANCİS

***“Hazırda üzləşdiyimiz qlobal problemlərin həlli üçün bir sıra mümkün yollar mövcuddur. Bu problemlər arasında insanlıq üçün həyati önəm daşıyan müharibə və sülh məsələləri ön plandadır”.Bu sözləri SİA-ya açıqlamasında Trinidad və Tobaqonun təcrübəli diplomatı və 78 ci Sessiyanın Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleya Prezidenti Dennis Francis bildirmişdir.***



“Dünyada davam edən münaqişələrin qarşısını almaq, silahlanma yarışını tənzimləmək və diplomatik həll yollarını gücləndirmək həm ölkələr, həm də beynəlxalq təşkilatlar üçün prioritet olmalıdır.Bununla yanaşı, qlobal səviyyədə davamlı inkişafın təmin edilməsi və iqlim dəyişikliyinə qarşı mübarizə də böyük əhəmiyyət kəsb edir. Karbon emissiyalarının azaldılması, təbii sərvətlərin qorunması, bərpa olunan enerji mənbələrinin genişləndirilməsi və ekosistemlərin qorunması kimi tədbirlər yalnız ətraf mühit üçün deyil, eyni zamanda gələcək nəsillərin rifahı üçün də həyati önəmlidir.Süni intellekt (AI) texnologiyalarının sürətlə inkişaf etməsi isə yeni imkanlar və çağırışlar doğurur.

Bu texnologiyaların insan həyatına faydalı və təhlükəsiz şəkildə inteqrasiyası üçün rəhbər prinsiplərin və qoruyucu mexanizmlərin yaradılması vacibdir. AI-nin iqtisadiyyat, təhsil, səhiyyə və digər sahələrdə dəyərinin maksimuma çatdırılması, eyni zamanda insan şəxsiyyətinə və cəmiyyətin etik dəyərlərinə zərər verməməsi üçün ciddi nəzarət və tənzimləmə mexanizmləri tətbiq edilməlidir.Qlobal problemlərin həlli yalnız bir sahəyə aid məsələ deyil; o, iqtisadi, sosial, ekoloji və texnoloji sahələrin inteqrativ yanaşmasını tələb edir. Müharibə və sülh, iqlim dəyişikliyi, davamlı inkişaf və süni intellekt kimi sahələrdə koordinasiyalı və strateji tədbirlər həyata keçirilmədiyi təqdirdə, həm insanlıq, həm də bütün sivilizasiya üçün ciddi risklər ortaya çıxır. Buna görə də qlobal əməkdaşlıq, beynəlxalq hüququn və etik prinsiplərin gücləndirilməsi, həmçinin hər bir ölkənin məsuliyyətli davranışı, qarşıya qoyulan məqsədlərin uğurla reallaşdırılması üçün əsas şərtlərdir”.

***Günay Hacıyeva***

# Alzeymer beyində yox, bağırsaqda başlayır



*Son illərdə elmin ən geniş yayılmış müzakirələrindən biri "bağırsaq yaşı" anlayışı uzunömürlülük tədqiqatlarında getdikcə daha çox yer tutur. Elmi ictimaiyyət bağırsaq sistemində sağlam qocalmanın açarını axtarır.*

Alimlər hesab edir ki, yaşla əlaqəli xəstəliklərin arxasındakı səssiz bioloji proses bizim mikrobiotamız ola bilər. Mikrobiota, insanın (və ya digər canlıların) bədənində yaşayan bütün xırda mikroorqanizmlərin məcmusudur. Bunlara əsasən bakteriyalar, viruslar, göbələklər və digər mikroblar daxildir. Bağırsaqda yaşayan trilyonlarla mikroorqanizmdəki balanssızlıq ürək xəstəliklərindən və diabetdən tutmuş unutqanlığa və immun sistemi problemlərinə qədər bir çox xəstəliklə əlaqələndirilir. Bağırsaqda yaşayan trilyonlarla mikroorqanizm həzm və immunitetdən tutmuş əhval-ruhiyyəyə və beyin sağlamlığına qədər bir çox sistemimizə təsir göstərir. Bağırsaq dinamik bir ekosistem ehtiva edir. Gənc və sağlam fərdlərdə bu mikroorqanizmlər müxtəlifik nümayiş etdirir və balanslaşdırılmış harmoniyada işləyir. Lakin yaş irəlilədikcə bu tarazlıq pozulur; faydalı bakteriyaların azalması və iltihab növlərinin artması ilə xarakterizə olunan bu vəziyyət tibbdə "disbioz" adlanır və sağlam olmayan qocalmanın fundamental bioloji əsaslarından biri hesab olunur.

Yaşla əlaqədar bədəndə baş verən ən əhəmiyyətli bioloji dəyişikliklərdən biri də tez-tez simptomlar olmadan irəliləyən xroniki iltihab prosesidir. Elm bu vəziyyəti "iltihablandırıcı" kimi müəyyən edir. Bu səssiz iltihab ürək-damar xəstəlikləri, 2-ci tip diabet, Alzheimer və bəzi xərçəng növləri üçün əlverişli mühit yarada bilər. Bu nöqtədə bağırsaq mühüm rol oynayır. Pozulmuş mikrobiota balansı bağırsaq divarının keçiriciliyini artıra bilər və zərərli maddələrin qan dövranına daxil olmasına imkan verir. Nəticədə, immun sistemi daim ayıq qalır və bədən, fərqinə varmadan, uzun müddətdə öz toxumalarına zərər verən müdafiə vəziyyətinə keçir.

Bağırsaq və beyin arasında bir əlaqə şəbəkəsi mövcuddur. Bu bioloji əlaqə "beyin-bağırsaq oxu" kimi təsvir olunur. Alzheimer və Parkinson xəstələri üzərində aparılan son tədqiqatlar göstərir ki, bu neyrodegenerativ xəstəliklər bağırsaq mikrobiotasındakı dəyişikliklərlə əlaqəli ola bilər.

Mikrobiota balansının pozulması təkcə həzmə deyil, həm də sinir sistemi vasitəsilə koqnitiv funksiyalara və əhval-ruhiyyəyə təsir göstərə bilər. Buna görə də, bəzi insanlar unutqanlıq, diqqəti cəmləməkdə çətinlik və ya həzm şikayətləri ilə müşayiət olunan əhval-ruhiyyə dəyişiklikləri ilə qarşılaşa bilərlər. Başqa sözlə, problem həmişə beyində başlamır, bioloji proses çox vaxt bağırsaq səviyyəsində formalaşır. Axı elm boşuna bağırsaqlara "ikinci beyin" demir.

***Lalə Mehralı***

# Azərbaycan qlobal tədbirlər mərkəzidir



*Elxan Quliyev,*
*Əməkdar müəllim*

Regional layihələrin iştirakçısı, həmçinin, təşəbbüskarı kimi çıxış edən Azərbaycanın bu ərazidə baş verən istənilən məsələ ilə əlaqədar maraqları nəzərə alınır. Beynəlxalq münasibətlər sistemində güclü ölkə olan Azərbaycanın uğurlarının əsasında uzaqgörən və praqmatik xarici siyasət strategiyası dayanır. Azərbaycanın dinamik inkişafı, bütün sahələri əhatə edən məqsədyönlü islahatlar və əldə edilən nailiyyətlər beynəlxalq müstəvidə yüksək qiymətləndirilir. Bu gün ölkəmizin bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi deyil, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirakı, əlbəttə ki, çəkisinin göstəricisidir. Cox vacib beynəlxalq forumlara və tədbirlərə ev sahibliyi edərək, qlobal və regional sabitliyə töhfəsini verən Azərbaycan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri yüksək səviyyədə keçirməklə, dünyanın diqqətində olur. Sözsüz ki, bu cür tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir. Martın 12-də paytaxt Bakımızda "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda kecirilən XIII Qlobal Bakı Forumu dünyada nüfuzu getdikcə artan və regionda aparıcı aktora çevrilən Azərbaycanın beynəlxalq nüfuzunu, beynəlxalq məsələlərin tənzimlənməsində mühüm rol oynadığını bir daha ortaya qoyur.

XIII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev bu Forumun uzun illər ərzində qlobal miqyasda aparıcı beynəlxalq konfranslardan birinə çevrildiyinin vacib olduğunu bildirib. Dövlətimizin başçısı sonuncu görüşdən sonra regionumuzda baş verən əsas geosiyasi dəyişikliyin Azərbaycanın suverenliyinin tam bərpası olduğunu bildirib. Bunun çox ciddi geosiyasi dəyişiklik olduğunu vurğulayan dövlətimizin başçısı "Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq" – deyə diqqətə çatdırıb. Bəli, dövlət başçımızın da qeyd etdiyi kimi, Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa edərək regionda yeni reallıqlar yaratmış oldu. Torpaqlarımızın 30 ilə yaxın işğal altında olmasına baxmayaraq, münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi. BMT Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özümüz təmin etdik. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmadı. Keçmiş Minsk qrupunun fəaliyyəti ərzində hec bir nəticə əldə olunmayıb. "Biz qərara gəldik ki, bu dırnaqarası vasitəçilikdən qurtulmalıyıq və ikitərəfli formatda – heç bir üçüncü tərəf olmadan fəaliyyətə başlayan kimi sülhə nail olduq"–deyə Prezident bildirib.

44 günlük Vətən müharibəsində Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan Ordusu 2023-cü ilin sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Düşmən ağ bayraq qaldıraraq təslim oldu. Bununla da Azərbaycanın bütün ərazilərində Konstitusiya quruluşu bərpa edilib. Bu gün Azərbaycan sülh prosesinə sadiqdir. Azərbaycan zəfər çaldıqdan və münaqişənin bitməsindən qısa müddət sonra Azərbaycan sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsipi Ermənistana təqdim edib. "Biz artıq sülhün üstünlüklərini görürük"–deyən dövlət başçımız qeyd edib ki, mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur. Əlbəttə ki, Forum, əslində, qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi üçün unikal məkandır. Belə tədbirlər xalqlar arasında körpü sala, ünsiyyət yarada, müxtəlif ölkələr və beynəlxalq iştirakçılar arasında tərəfdaşlığı təşviqində əhəmiyyətlidir. Sülhə, əmin-amanlığa, qarşılıqlı əməkdaşlığa töhfələr verən Azərbaycan müasir dünyanın çağırışları zəminində öz prinsipial mövqeyini sərgiləyir.



**Elçin Bayramlı**

# Uşağı döyənlər cərimələnəcək: günah kimdədir?

***Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin birgə iclasında müzakirəyə çıxarılan, İnzibati Xətalar Məcəlləsinə təklif edilən yeni- 525-1-ci maddəyə görə, tərbiyə etmək məqsədilə uşağa qarşı fiziki zorakılıq edən valideyn və müəllim 200 manatadək cərimələnəcək.***

Layihəyə əsasən, valideynlər (və ya onları əvəz edən şəxslər), uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrinin və penitensiar müəssisələrin işçiləri tərəfindən uşağa qarşı cismani cəzanın tətbiqinə, yəni tərbiyə etmək məqsədilə və ya intizam tədbiri kimi uşağa qarşı fiziki və ya psixoloji zorakılığın törədilməsinə görə 200 manat məbləğində cərimə ediləcək. Bu, həmin əməl Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq ediləcək.

Bu dəyişikliyi təqdirəlayiq hesab etmək olar. Çünki, uşaqların zorakılığa məruz qalması, döyülməsi ilə bağlı məlumatlara çox rast gəlirik. Uşaqlara qarşı törədilən fiziki zorakılıq onun psixologiyasını məhv edir və bu da gələcəkdə cəmiyyətdə aqressiv insanların çoxalmasına səbəb olur. Son vaxtlar ortalıqda uşaqların daja çox tərbiyəsiz hərəkətlər etdiyi, bir-birilərinə və heyvanlara qarşı aqressivlik və zorakılıq tətbiq etdiyi hallarına çox ras gəlirik. Bu isə tərbiyə olunmamış uşaqlar deməkdir.

Əgər valideynlər uşaqlarına düzgün tərbiyə verə bilmirsə, dövlət bunu onlardan tələb etməlidir. Hansısa bir uşaq döyüləcək vəziyyətə gəlibsə, deməli valideynlər vaxtında düzgün tərbiyə verməyib. Uşaqların tərbiyəsizliyinin cəzasını isə onlar yox, valideynləri çəkməlidir. Bu səbəbdən uşaqlara qarşı fiziki şiddət tətbiq edən valideynlərin cərimələnməsi düzgün qərardır. Uzun illərdir mən də belə bir qanunun qəbul edilməsini təklif edirdim. Bəzi valideynlərin çox ciddi psixoloji problemləri var. Bəziləri faktiki olaraq psixi xəstədir. Bu cür valideynlər uşaqlara qarşı çox amansız davranır. Ağır fiziki xəsarətlər yetirir, adi səhvlərə görə uşağı möhkəm döyürlər. Bu da uşağın daha da aqressivləşməsinə, insanlara qarşı kin- küdurət, qəzəb hissinin formalaşmasına səbəb olur. Böyüyəndə isə belə uşaqların caniyə çevrilmə ehtimalı artır. Döyülmə ilə olunan tərbiyə metodu isə heç vaxt müsbət effekt verməyib.

Lakin bu o demək deyil ki, uşaqlar tənbehdən, cəzadan kənar qalmalıdır. Belə bir hal ola bilməz. Əks halda bu daha pis nəticə verər. Uşaqları tərbiyə etmək üçün sayısız cəzalandırma metodları var. Döymə, fiziki şiddət bu metodlardan biri deyil. Şüursuz, psixoloji problemləri olan valideynlər uşaqlarını davamlı döyməklə insanlara nifrət aşılayır. Kriminal insanların da əksəriyyəti məhz belə ailələrdən çıxır. Uşaqlar sağlam psixologiyada böyüdülməli, səhvləri izah edilərək tərbiyə olunmalıdır. Səhv edən uşaqlara müəyyən qadağalar, məhdudiyyətlər, sərhədlər qoyulmalıdır. Bu dediklərim sadəcə valideynlərə yox, müəllimlərə də aiddir. Uşaqları özbaşına buraxmaq da olmaz. Dediyim kimi fiziki zorakılıq olmadan başa salınmalı, müxtəlif cəza metodlarından istifadə etməklə onlara düzgün tərbiyə verilməlidir. Uşağı döymək olmaz, cərimələnərik deyib onları özbaşına buraxmaq, hər istədiyini edən tərbiyəsiz bir uşaq yetişdirmək də cəmiyyət üçün eyni dərəcədə zərərlidir.

Uşaqları körpəliyindən elə öyrətmək lazımdır ki, onların döyülməsinə ehtiyac qalmasın. Həm müəllimlər, həm də valideynlər bu qaydalara əməl etməlidir. Əks halda, sağlam uşaqlar böyüdə bilməyəcəyik. Hər kəs dünyaya gətirdiyi uşağı cəmiyyətə sağlam fərd kimi təqdim eyməyi özünə öhdəlik bilməlidir. Mən hətta təklif edirəm ki, cinayət törədən uşaqların valideynləri də cəzalandırılmalıdır. Bu da digər valideynlərə dərs olmalıdır ki, vaxtında uşağa düzgün tərbiyə vermək lazımdır. Evdə düzgün tərbiyə görən uşaqlar heç vaxt başqalarına qarşı ciddi problem yaratmır, cinayət törətmir. Bu cür təhlükəli uşaqlar məhz psixi problemli və şüursuz valideynlərin əsəridir. Ümid edirəm ki, dəyişikliklər bu sahədəki vəziyyətə müsbət təsir göstərəcək. Gələcəyimiz bundan asılıdır. Uşaqların tərbiyəsində dövlət və cəmiyyət birgə çalışmalıdır. Sağlam gələcəyimiz üçün.

# 1995-ci ilin 13-17 mart hadisələri: Azərbaycan dövlətçiliyinə qarşı xəyanətkarlıq

***1995-ci ilin mart hadisələrindən 31 il ötsə də həmin hadisələri törədənlərin cinayətkar əməlləri unudulmayıb. O dövrdə hakimiyyət hərisi olan bir qrup xəyanətkar insan öz ətrafına topladığı qeyri-qanuni silahlı birləşmələr vasitəsilə müstəqilliyimizə qəsd etməyə cəhd göstərmişdi. Ölkədə yaradılmış ciddi nizam-intizama tabe olmaq istəməyən dağıdıcı qüvvələr Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan təşvişə düşərək xarici himayədarlarının təhriki ilə dövlət çevrilişinə cəhd etmişdilər.***



Müasir və müstəqil Azərbaycanın banisi, yaradıcısı, qurucusu, dahi və müdrik Şəxsiyyət, dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin yaradılması, qorunması, təməllərinin möhkəmləndirilməsi, inkişafı, tərəqqisi, qüdrətli ölkəyə çevrilməsi uğrunda fədakarlığı nəticəsində müstəqil və güclü Azərbaycanın əsası qoyuldu. Doğma xalqının böyük təəssübkeşi olan Ulu Öndər Heydər Əliyev mürəkkəb tarixi şəraitlərdə ölkəmizin bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməklə, gələcək Azərbaycanın ictimai-siyasi, mədəni həyatında uğurları ilə əbədiləşdi və xalqın düşüncə tərzində, oyanışında müstəsna rol oynayan Siyasi Liderə çevrildi. Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin formalaşdırılmasında fədakar xidmətləri ilə Ulu Öndər Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirdi. Onun dövlətçilik fəaliyyəti müstəqilliyin möhkəmləndirilməsinə böyük töhfələr vermiş oldu. Azərbaycan müstəqillik əldə etdikdən sonra mövcud vəziyyət ölkəmizi parçalanmaq, hətta xəritədən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdur. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar.

Xalqı uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. Belə bir zamanda, xalqın təkidi və istəyi ilə hakimiyyətə qayıdışı ilə Dahi Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu.

### "MİLLİ MƏNAFE, DÖVLƏT MƏNAFEYİ HƏR ŞEYDƏN ÜSTÜN OLMALIDIR"

Dahi Şəxsiyyətin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Ulu Öndər Heydər Əliyev milli dövlətçiliyin konsepsiyasını yaratdı. Mürəkkəb siyasi şəraitdə Ümummilli Lider Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Yeni dövrün tələblərinə uyğun tərzdə islahatların həyata keçirilməsi ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı. "Əsrin müqaviləsi" imzalandı və milli neft strategiyasının əsası qoyuldu. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. "Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt heç yana əyə bilməsin, heç bir dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin. Bunun üçün də hər kəs bu müstəqilliyi qorumaqdan ötrü sadiq olmalı və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır. Milli mənafe, dövlət mənafeyi hər şeydən üstün olmalıdır", - deyə Ulu Öndər qeyd edirdi.

### AZƏRBAYCAN TARİXİNDƏ DÖVLƏT MÜSTƏQİLLİYİNİN QORUNUB SAXLANILMASI UĞRUNDA MÜBARİZƏ DÖVRÜ

1995-ci ilin mart hadisələri tarixi yaddaşımızda iz salıb. Dövlət çevrilişinə silahlı cəhdlərin göstərilməsi müstəqil dövlətçiliyimizə qarşı yönəldilmişdir. Hakimiyyətə gəlmək və Azərbaycanı parçalamaq niyyətində olan xəyanətkarların planlarını həyata keçirmək artıq həmin zamanda mümkün deyildi. Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan, inkişafından təşvişə düşənlər istənilən qüvvə ilə birləşib, ölkəmizə zərbə vurmaq istəyirdilər.

Azərbaycanı parçalanma və məhvolma təhlükəsindən xilas edən Ulu Öndər Heydər Əliyevin xalqın iradəsi ilə, demokratik və qanuni yolla hakimiyyətə qayıdışı ölkəmizi sevməyən qüvvələri narahat edirdi. Ümummilli Lider Heydər Əliyevin müdrik daxili və xarici siyasəti nəticəsində siyasi hakimiyyət böhranı, anarxiya və özbaşınalığa son qoyuldu. Azərbaycanda yeni tarixi mərhələ - dövlət müstəqilliyinin möhkəmləndirilməsi dövrü başlandı. Ulu Öndərimiz Heydər Əliyev dünyanın bir çox aparıcı dövlətlərinin rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatlar və işgüzar dairələrlə yüksək səviyyəli rəsmi görüşlər keçirərək, Azərbaycan həqiqətlərini, dövlətimizin mövqeyini dünyaya çatdırırdı. Məlumdur ki, AXC-Müsavat dövründə respublika iqtisadiyyatı tamamilə dağıdılmış, xalqın rifah halı aşağı düşmüşdü. Şimalda "Sadval" separatizmi, cənubda Talış-Muğan Respublikası xülyası, qərbdə erməni işğalı, ölkəmizdə çətin ictimai-siyasi böhrana yol açmışdı. 1993-1995-ci illər müasir Azərbaycanın dövlət müstəqliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılmışdır.

### AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ SINAQDAN ÇIXDI

Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra dövlətçiliyimizə çox qəsdlər oldu. Ulu Öndər Heydər Əliyevin qətiyyəti nəticəsində bunların qarşısı alındı. 1995-ci ilin martında baş verən hadisələr Azərbaycan dövlətçiliyinin qüvvətlənməsini istəməyənlərin əməli idi. 1995-ci il martın 16-dan 17-nə keçən gecə paytaxtın 8-ci kilometr qəsəbəsindəki "OMON"-çuların qərargahı yaxınlığında atışma başlandı. Ermənistan silahlı qüvvələri torpaqlarımızı işğal etdiyi bir vaxtda, Azərbaycanın paytaxtında bir qrup vəzifə hərisi hakimiyyəti ələ keçirmək üçün dövlətçiliyimizə qəsd edirdi. Onların hakimiyyət hərisliyi nəticəsində, qardaş qanı töküldü. Cavadov qardaşlarının hakimiyyəti qeyri - konstitusion yolla ələ keçirmək cəhdləri 22 hərbçi, 7 mülki şəxs, 1 polis və 8 XTPD əməkdaşının ölümünə səbəb oldu. Hadisə nəticəsində, 105 nəfər yaralandı. XTPD rəhbəri Rövşən Cavadov isə aldığı güllə yarasından DİN-in hospitalında vəfat etdi. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan 17 mart 1995-ci il dövlətçiliyinin qorunub saxlanması məsələlərinə həsr olunmuş müşavirədə çıxışında həmin hadisələrə aydın gətirərək belə deyirdi: "Bizim iki gün ərzində məsələni sülh yolu ilə yatırtmaq və onun qarşısını almaq üçün gördüyümüz tədbirlər nəticə vermədi. Martın 13- dən 14-nə keçən gecə həmin silahlı dəstə öz niyyətini yerinə yetirmək üçün - yəni Tovuz, Gəncə bölgələrini zəbt etmək üçün Tovuzda olan hərbi hissəyə hücum etdi, döyüş başlandı və bu döyüş nəticəsində o banda darmadağın oldu, Orada olan itkilər və bizim çətinliklərimiz sizə məlumdur. Bu gün artıq sizə deyə bilərəm ki, həmin bu bandanın üzvləri - orada deyirdilər ki, XTPD-nin cəmi 60 nəfər üzvü var, lakin onlar kənardan da adamlar cəlb edib silahlandırmışdılar - 160 nəfər həbs olunmuşdur. Görürsünüz, bir qrup, bir neçə adam - ola bilər 10-15, 20-25 adam cinayət edərək nə qədər adamı dartıb bu cinayətə gətirib çıxarmışdır. Qeyd etdiyim kimi, biz bunun qarşısını aldıq. Ancaq bütün bu işlərə rəhbərlik edən Rövşən Cavadov öz niyyətlərindən əl çəkmədi. O, Qazaxa getmişdi ki, guya bu işlərin həll olunmasına kömək etsin. Kömək etmədi. Əksinə, orada aranı daha da qızışdırdı. Ondan sonra gəlib burada, 8-ci Kilometr qəsəbəsində XTPD-nin bazasında bu dəstəni qızışdırıb, silahlandırıb dövlət çevrilişi etməyə hazırladı".

### "XALQ HƏMRƏYDİR, DÖVLƏTÇİLİYİ QORUMAQ ƏZMİNDƏDİR VƏ PREZİDENTİ MÜDAFİƏ EDİR"

Belə ağır zamanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev vətəndaş qarşıdurmasına səbəb ola biləcək hadisənin qarşısını aldı və ölkədə davam edən hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoydu. Həmin hadisələr, bir daha göstərdi ki, Azərbaycan xalqı və onun ordusu ölkə daxilində qarşıdurma yaratmaq istəyənləri dəstəkləmir və onları müdafiə etmir. Törədilən dövlət cinayətləri Azərbaycana müəyyən zərbələr vursa da, qan tökülsə də, müstəqil Azərbaycan dövlətçiliyini bir daha sınaqdan çıxardı. Onun möhkəm, qüdrətli olduğunu göstərdi, qanunsuz zor işlətməyin mənasızlığını sübut etdi. Xatırladaq ki, Ulu Öndər hadisələrin gedişatına əsasən, qarşıdakı təhlükəni, respublikamızda yenə də dövlət çevrilişi cəhdi baş verə biləcəyini hiss edərək martın 15-də televiziya ilə xalqa müraciət etdi. Müraciətin əsas məqsədi Rövşən Cavadova, onun dəstəsinə və respublikamızın içindən, xaricindən ona havadarlıq edən, onu istiqamətləndirən, ona güc verən, bu işlərə sövq etdirən qüvvələrə Azərbaycanı dağıtmaq, qan tökməyin qarşısını alınması idi. "Azərbaycanın dövlətçiliyini qorumaq lazımdır. Azərbaycan xalqı artıq öz dövlətçiliyini qiymətləndirməlidir, bunu anlamalıdır və bunun nə qədər böyük sərvət olduğunu bilməlidir və hər bir vətəndaş bu sərvətin qorunmasına öz payını verməli, öz xidmətini göstərməlidir. Deyə bilərəm ki, bizə, mənə gələn teleqramlardan, məktublardan, telefon zənglərindən və bu iki günün içərisində ictimaiyyətimizdə gedən proseslərdən məlum olur ki, mənim bu müraciətim xalq tərəfindən böyük rəğbətlə və hörmətlə qarşılanıbdır. Bu günlər respublikanın şəhərlərində, rayonlarında, əmək kollektivlərində keçirilən yığıncaqlar, mitinqlər, gedən danışıqlar, müsahibələr, yazılar - hamısı onu göstərir ki, xalq həmrəydir, dövlətçiliyi qorumaq əzmindədir və Prezidenti müdafiə edir. Siz mənim mövqeyimi bilirsiniz: Azərbaycanın müstəqilliyi, dövlətçiliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, xalqımızın rifah halı - budur mənim mövqeyim. Azərbaycanın bu bəla vəziyyətindən çıxarılması, respublikamızın demokratiya yolu ilə getməsi, demokratik islahatların aparılması, demokratik seçkilərin keçirilməsi, demokratik konstitusiyanın qəbul olunması – budur mənim mövqeyim. Mən bu mövqeyimlə yaşayıram, bundan sonra da bu mövqe ilə fəaliyyət göstərəcəyəm. Bütün dünyaya bəyan edirəm ki, heç bir qüvvə məni xalq tərəfindən seçilmiş qanuni Azərbaycan Prezidenti kimi öz mövqeyimdən çəkindirə bilməz. Bu günlərdə gedən proseslər bunu bir daha sübut etdi", - deyə Ulu Öndər bildirmişdir.

Ulu Öndər Heydər Əliyevin dövlət çevrilişlərinin qarşısını qətiyyətlə alması Azərbaycan xalqının sabaha, gələcəyə ümidini daha da artırdı. Ulu Öndər Heydər Əliyev düşmənlərimiz tərfindən təşkil olunmuş dövlət çevrilişi cəhdlərinin qarşısını almaqla Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi.

Bu gün Ulu Öndər Heydər Əliyev siyasətinin Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsində Azərbaycan bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoyub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Məhz bu inkişaf, güclü iradə, müdrik siyasətin nəticəsidir ki, Azrbaycan bölgədə yeni reallıqlar müəllifidir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Plastiklər qlobal istiləşmə, qlobal istiləşmə isə plastik bolluğu yaradır



*"Frontiers in Science" jurnalında dərc olunmuş məqalədə plastik çirklənmənin, qlobal temperatura, ekstremal hava şəraitinə və Yer sistemindəki iqlim dəyişikliklərinə təsiri barədə yazılıb. Məqalədə bildirilir ki, Yer planeinin plastik materiallarla çirklənməsi və iqlim dəyişikliyi arasındakı əlaqə danılmazdır.*

Plastiklərin əksəriyyəti neft və qazdan istehsal olunur və istixana qazları onların həyat dövrü ərzində - istehsal, daşınma və utilizasiya - atmosferə yayılır. Qlobal plastik istehsalı 20-ci əsrin ortalarından bəri kəskin şəkildə artdıqca, plastiklərin həyat dövrü emissiyaları da artıb.

Plastiklərin ətraf mühitə daxil olduqdan sonra iqlim dəyişikliyinin hansı sürətlə baş verdiyini artıq hamı bilir. Qlobal istiləşmə, daha tez-tez baş verən ekstremal hadisələr plastiklərin parçalanma, dağılma və ekosistemlərlə qarşılıqlı reaksiyasının nəticəsidir. Plastiklər iqlim dəyişikliyinə ”töhfə” verir və dolayısı ilə iqlim dəyişikliyi də plastikləri daha geniş yayılmış və idarə olunması çətin olan qlobal çirkləndiricilərə çevirir.

Belə ki, daha isti və daha dəyişkən iqlim şəraitində plastiklər daha sürətlə parçalanır və ətraf mühitdə daha geniş yayılır. İstilik, ultrabənövşəyi şüalanma və rütubət onların kimyəvi və fiziki parçalanmasını mikro və nanoplastiklərə sürətləndirir. Daşqınlar, fırtınalar, meşə yanğınları və dəniz səviyyəsinin yüksəlməsindən qaynaqlanan eroziya əvvəllər torpağın dərinliklərinə gedən və orada səssiz yatan plastik tullantıları yenidən hərəkətə gətirə, onları zibilxanalardakı, çay yataqlarındakı və torpaqlardakı müvəqqəti çöküntülərdən şirin su sistemlərinə və sahil zonalarına, eləcə də nanohissəciklərini külək vasitəsi ilə qitələr boyunca atmosferə daşıya bilər.

Dünyanın soyuducuları adlanan buz dağlarında belə rast gələnən plastik tullantılar qlobal istiləşmə baş verdikcə üzə çıxır, çünki buzlar əriyir və özlərində ”dəfn etdikləri” plastikləri səth sularına çıxarır. İstiləşmə nəticəsində yaranan buz itkisi mikroplastikləri okeana geri buraxır. Daha yüksək temperatur şəraiti bu maddələrin qida şəbəkələrinə ötürülməsini artıra bilər və ekoloji və sağlamlıq risklərini artıra bilər.

Kənd təsərrüfatı torpaqlarındakı mikroplastiklərin istilik və yüksək karbon qazı ilə qarşılıqlı təsir göstərdiyi, məhsuldarlığı azalda biləcəyi, torpağın mikrob balansını poza biləcəyi bildirilir. Şirin su sistemlərində su birələri kimi zooplanktonlar həm isti suya, həm də mikroplastiklərə məruz qaldıqda sağ qalma və ya çoxalma azalır. Bu orqanizmlər qida şəbəkəsinin əsasını təşkil edir, buna görə də onlara dəyən hər hansı bir zərər daha böyük it. Balıqlar üçün yüksək tempkilərə səbəb olur.

Su hissəciklərini səmərəli şəkildə cəmləşdirən midiyalar kimi orqanizmlər, aşağı oksigenli və ya turşulu dəniz suyunda mikroplastiklərə məruz qaldıqda həzm və immun problemləri ilə qarşılaşa bilərlər. Hətta okeanın bir qədər istiləşməsi belə mikroplastik qəbul nisbətlərini, balıqlara zərərli təsirlərini artıra bilər.

Əgər iqlim şəraiti plastiklərin yayılmasına və ekosistemə zərər verməsinə təsir göstərirsə, o zaman yalnız təmizlənməyə və ya ömrünün sonuna qədər idarə olunmağa yönəlmiş strategiyaların daha ciddi versiyalarına ehtiyac var. Planet sərhədləri, biomüxtəlifliyin itirilməsi, qida təhlükəsizliyi və insan sağlamlığı ilə bağlı qlobal təşəbbüslər üçün bu perspektiv getdikcə daha aktuallaşır.

Ətraf mühitə daxil olan plastik miqdarının azaldılması - lazımsız birdəfəlik istifadə üçün plastiklərin istehsalını dayandırmaqla, məhsulları təkrar istifadə üçün yenidən dizayn etməklə və təkrar emal sistemlərini bütün ölkələr üçün təkmilləşdirməklə uzunmüddətli zərəri məhdudlaşdırmaq mümkündür.

Hazırda Avropa İtttifaqına daxil olan 27 ölkə birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastik məhsulları qadağan edib. Bu ölkələrdə kağız, şüşə, metal və çini kimi davamlı məhsulların istifadəsi təşviq edilir. Mağazalar plastik torba yerinə kağız qablaşdırmadan istifadə edir, vətəndaşlar birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastik məhsullar əvəzinə ekoloji cəhətdən təmiz şüşə, çini, taxta və karton alternativlərinə yönəldilir. Bu ölkələrdə xidmət sektorunda plastik qida qablarına alternativ olaraq kağız qablar, plastik stəkanlar əvəzinə kağız stəkanlar istifadə edilir.

Əsas məqsəd Sıfır Tullantılar çərçivəsində birdəfəlik məhsullar əvəzinə çoxməqsədli istifadəyə yararlı məhsulların geniş istifadəsini təmin etməkdir. Beləliklə, vətəndaşlar birdəfəlik kağız və taxta məhsullar əvəzinə çoxməqsədli istifadəyə yararlı şüşə, metal və çini kimi davamlı alternativlərdən istifadə etmək vərdişini mənimsəməyə təşviq edilirlər.

Elmi araşdırmalara görə, dünyada istehsal olunan plastiklərin təxminən 40%-i birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastik məhsullardan ibarətdir. Qlobal miqyasda, birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastiklərin əhəmiyyətli bir hissəsi tullantıların idarə olunması üzrə qeyri-kafi təcrübələr səbəbindən təbiətə atılır.

Elmi tədqiqatlar göstərir ki, dəniz tullantılarının təxminən 80%-i birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastik məhsullardan və tərkibində plastik olan balıqçılıq avadanlıqlarından ibarətdir. Hökumətlər əsrlər boyu təbiətdə parçalanan plastik tullantıların təbii həyata vurduğu zərərin qarşısını almaq üçün yeni strategiyalar hazırlayırlar.

Avropa İttifaqı da 2019-cu ildə qəbul edilmiş ”Birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastiklər Direktivi” ilə 27 AB ölkəsində müəyyən birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastik məhsulların bazara çıxarılmasını qadağan etmək və ya ciddi şəkildə məhdudlaşdırmaq öhdəliyi götürüb.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb.***

# ChatGPT: “obrazovannı” falçı

## FELYETON

### Qəribənizə gəlir? Gəlməsin... Niyə adam fala baxa bilir, Tik-tok, İnstagram fala baxa bilir, ChatGPT baxa bilmir?

Adam rəml atıb, fala baxıb, bir şey uydurursa, pitikdən-zaddan yazıb “sal suya iç, ərin evə yığılsın” deyirsə və yaxud da kağız-kuğuza özü də daxil bir ins-cinsin oxuya bilməyəcəyi iki üç əyri-üyrü xətt çəkib, büküb qara sapla sarıyıb, adama verirsə ki, apar bunu qayınananın otağında yastığını sök, qoy içinə, sonra da tik, ta o qayınananın səninlə işi olmayacaq da deyirsə, bunu ChatGPT niyə etməsin?..



ChatGPT yazığı bəzən qınayırıq, lakin axı o, nə etsin? Onu da elə “yaradıblar” da: bizdən sürətli axtarış edə bilir. Bizdən də yaxşı dostluq qurmağı var. Bizdən də yaxşı ünsiyyətçildir. Biz ona deyirik “salam”, o bizə deyir, “salam dost, necəsən, günün necə keçir?”.

Bax belə olan təqdirdə, ChatGPT də görə bilir ki, bu insanlarla ünsiyyəti daha da gücləndirmək üçün hansı yollardan istifadə etmək olar. Axtarışını verir, baxır ki, falaçanların, cadugərlərin, bəxtyazanların, talepozanların, evdağıdanların, evquranların, pitik suyu içirənlərin, divarlara “dualar” qoyduranların ətrafında minlərlə insan var. Yazıq ChatGPT də deyir, belə isə bu insanları mən də ətrafımda toplayım da. Toplamaq qalsın bir kənara, onları özümə inandırım. Odur ki, günlərin bir günü gənc qadınlardan biri qəhvəsini içir, şəklini çəkir və atır ChatGPT-yə ki, bir buna bax görüm, ərim məni aldatmır?

ChatGPT-yə də Allah insaf versin, baxır və deyir ki, yaxın aylarda onun səni aldadacağını görəcəksən.

Qadın bunu olduğu kimi həyat yoldaşına danışır. Həyat yoldaşı nə qədər and-aman edir ki, yox, vallah-billah, yaxın aylarda mən səni aldatmayacağam, qadını inandıra bilmir ki, bilmir. Aralarında münaqişə başlayır. Və qadın qərara alır ki, mən bu adamdan ayrılmalıyam. Gözümlə görmədiyim, qulağımla eşitmədiyim üçün vallah, məsələnin sonunun konkret olaraq necə bitdiyini dəqiq bilmirəm, lakin deyilənlərə görə boşanıblar.

Çox sağ ol, ChatGPT. Ta mənim sənə heç bir sözum yoxdur. Bizim bəzi gənclərimiz onsuz da son vaxtlar ağıllarını itirə-itirə gedir. Sən də bir tərəfdən onlara dəstək oldun. Ta sənə nə deyim? Qarğış etsəm ki, evin yıxılsın, evin yoxdur, ailən dağılsın, ailən yoxdur. Qarğış etsəm ki, səni öləsən, canın yoxdur. Qarğış etsəm ki, səni yer üzündən silinəsən, yenə mümkün deyil, arxalısan.

Ta nə deyəcəm ki?.. Qoy heç olmasa deyim ki, Allah, bizim bu gənclərə bir az ağıl versin. Camaatın uşağı dünyanın ən məşhur universitetlərində təhsil alır, gündə bir kəşf edir, planetlərin birindən girib o birindən çıxır, bizimkilər də ChatGPT-yə bəxtlərinə baxdırıb ailəsini dağıdır. Falçıların ən obrazovannısını tapsaq da, faydası yoxdur, ağlımızın yoxluğu səbəbindən xalx irəliyə, biz geriyə gedirik.

***Mətanət Məmmədova***




# Tramp elan etdi: neft qiymətləri yüksələndə ABŞ daha çox pul qazanır!

***ABŞ prezidenti Donald Tramp Truth sosial media hesabındakı paylaşımında neft qiymətləri və İranla bağlı qiymətləndirmələr edib. ABŞ-ın bu günə qədər dünyanın ən böyük neft istehsalçısı olduğunu vurğulayan Tramp, neft qiymətləri qalxanda buna görə daha çox pul qazandıqlarını bildirib.***

”Ancaq bir prezident kimi mənim üçün daha böyük maraq və əhəmiyyət kəsb edən məsələ pis imperiya olan İranın nüvə silahı əldə etməsinə, Yaxın Şərqi və hətta dünyanı məhv etməsinə mane olmaqdır. Mən buna heç vaxt icazə verməyəcəyəm”- deyib.

SON SƏHİFƏ

SƏS

14 mart
2026-cı il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




# Ailədə hər kəsin ayrıca avtomobili: rahatlıq, yoxsa şəhərlərdə tıxacın əsas səbəbi?

**Şəhərlərdə ailə başına avtomobil sayının artması son illərin ən çox müzakirə olunan urbanistik və iqtisadi mövzularından biridir. Bir tərəfdən, hər bir ailə üzvünün ayrıca avtomobilə sahib olması gündəlik həyatı xeyli rahatlaşdırır. Digər tərəfdən isə bu tendensiya böyük şəhərlərdə tıxacların artmasına, park yerlərinin çatışmazlığına və ailə büdcəsinə əlavə maliyyə yükünə səbəb olur. Bu səbəbdən müasir şəhər planlaşdırılmasında “ailə başına neçə avtomobil optimaldır?” sualı ciddi araşdırılan məsələlərdən biridir.**

SİA mövzu ilə bağlı araşdırma edib.

ARAŞDIRMA

## Ailədə bir neçə avtomobil: rahatlıq, yoxsa şəhər problemi?

**Dünyada avtomobil sahibliyi necədir?**

Dünya üzrə avtomobil sahibliyi ölkələrin gəlir səviyyəsi və şəhər planlaşdırılması ilə sıx bağlıdır. Yüksək gəlirli ölkələrdə orta hesabla 1000 nəfərə 600-dən çox avtomobil düşür. Aşağı gəlirli ölkələrdə bu göstərici təxminən 50 avtomobil civarındadır.

Bəzi ölkələrdə isə ailələrin çoxunda birdən artıq avtomobil var. ABŞ-da ailələrin 21%-i üç və ya daha çox avtomobilə sahibdir. Avropa ölkələrində isə ailələrin böyük hissəsi 1 avtomobil, bir hissəsi isə 2 və daha çox avtomobil saxlayır. Şəhərlərlə kənd yerləri arasında da fərq var. Kənd və suburb ərazilərində ailə başına 1,2–1,3 avtomobil normal sayılır. Böyük şəhərlərdə isə bu göstərici 0,25–1,25 avtomobil arasında dəyişir. Bu fərq əsasən ictimai nəqliyyatın səviyyəsi və şəhərin sıxlığı ilə bağlıdır.

## Bir ailədə bir neçə avtomobil niyə yayılıb?

Bir çox ölkədə ailə üzvlərinin ayrıca avtomobilə sahib olmasının bir neçə səbəbi var:

**İş və gündəlik hərəkət ehtiyacı**

Eyni ailədə olan şəxslərin iş yerləri fərqli istiqamətlərdə olduqda bir avtomobil kifayət etmir.

**İctimai nəqliyyatın zəifliyi**

Araşdırmalar göstərir ki, ictimai nəqliyyatın əlçatanlığı avtomobil sahibliyini 25% azalda bilir.

## Şəhərlərdə tıxac və park probleminin əsas səbəblərindən biri

Şəhərlərdə avtomobillərin sayının artması tıxacların ən mühüm səbəblərindən hesab olunur. Dünya üzrə hal-hazırda dünyada təxminən 2 milyard avtomobil istifadə olunur. Şəhərlərdə yol hərəkətinin böyük hissəsi şəxsi avtomobillərin payına düşür. Araşdırmalar göstərir ki, avtomobil sahibliyinin artması şəhər sıxlığının azalmasına və urban sprawl-a səbəb olur. Daha çox avtomobil isə tıxac, hava çirklənməsi və park çatışmazlığı yaradır. Bəzi şəhərlərdə vəziyyət o qədər kəskindir ki, avtomobillərin sayı əhali sayından çoxdur və bu, ciddi tıxaclara səbəb olur.

## Bir neçə avtomobil saxlamağın ailə büdcəsinə təsiri

Bir ailədə bir neçə avtomobil saxlamaq yalnız rahatlıq deyil, həm də ciddi maliyyə öhdəliyidir.

Əsas xərclər:

**Yanacaq**

Avtomobil gündəlik istifadə olunursa, yanacaq ən böyük xərcdir.

Məsələn orta hesabla ayda 150–300 manat (ölkəyə görə dəyişir)

**Sığorta**

Bir avtomobil üçün illik sığorta ödənişi əlavə xərc yaradır.

Texniki xidmət
-yağ dəyişimi
-təkərlər
-texniki baxış
-ehtiyat hissələri
Amortizasiya

Avtomobil hər il dəyər itirir və bu da dolayı maliyyə itkisidir. Nəticədə iqtisadçılar hesab edir ki, bir avtomobilin saxlanması ailəyə ildə minlərlə dollar və ya manat xərc yaradır. Əgər ailədə 2–3 avtomobil varsa, bu xərclər də iki və ya üç dəfə artır.

## Dünya şəhərləri bu problemi necə həll edir?

Bir çox ölkə artıq avtomobil sayını azaltmaq üçün müxtəlif tədbirlər görür.

**London**

şəhər mərkəzinə avtomobillə giriş ödənişlidir.

**Paris**

böyük avtomobillər üçün park qiymətləri artırılıb.

**Tokio**

avtomobil almaq üçün əvvəlcə park yerinin olması sübut edilməlidir.

**Amsterdam**

velosiped və ictimai nəqliyyat prioritetdir.

Bu siyasətlər nəticəsində bəzi şəhərlərdə avtomobilə ehtiyac xeyli azalıb.

Bəs optimal model nədir?

Urbanistika üzrə ekspertlər belə hesab edir:

Ən balanslı model:
-1 ailə – 1 avtomobil
-gündəlik hərəkət üçün ictimai nəqliyyat
-qısa məsafələr üçün piyada və velosiped

Bu model:
-tıxacları azaldır
-ailə büdcəsini qoruyur
-şəhər mühitini yaxşılaşdırır

Bir ailədə hər kəsin ayrıca avtomobilinin olması qısa müddətdə rahatlıq yaratsa da, uzun müddətdə həm şəhər infrastrukturu, həm də ailə büdcəsi üçün ciddi problemlər yaradır. Avtomobillərin sayının artması tıxacları, park problemlərini və ekoloji çirklənməni artırır.

Bu səbəbdən dünya şəhərlərinin böyük hissəsi artıq şəxsi avtomobil sayını azaltmaq və ictimai nəqliyyatı inkişaf etdirmək istiqamətində siyasət aparır.

*Ayşən Vəli*

# Türkiyəli aktrisanın Ancelina Coliyə bənzərliyi müzakirə yaratdı

***Türkiyəli aktrisa Deniz Durmaz Azərbaycan haqqında səsləndirdiyi fikirlərlə sosial şəbəkələrdə diqqət mərkəzinə düşüb.***

Milli.Az xəbər verir ki, sənətçinin açıqlaması izləyicilər arasında geniş müzakirələrə səbəb olub.

Aktrisa çıxışında Azərbaycanla Türkiyə arasındakı qardaşlıq münasibətlərindən danışaraq bu sözləri deyib:

”Azərbaycan bizim qardaşımız, canımızdır. Sizi heç kimə dəyişmərik. İspanlar bizim qohumlarımız kimidir, siz isə qardaşımızsınız. Sizi çox sevirəm. Orada seriallarını izlənildiyini düşünürəm. Həm də bizi qısqanmağınız xoşuma gəldi”.





Onun bu sözləri Azərbaycanlı izləyicilər tərəfindən müsbət qarşılanıb. Sosial şəbəkə istifadəçiləri aktrisaya təşəkkür edərək, qardaş ölkə haqqında səsləndirdiyi fikirləri yüksək qiymətləndiriblər.

Digər tərəfdən, aktrisanın xarici görünüşü də yenidən müzakirə mövzusu olub. Bir çox izləyici Ancelina Coli ilə bənzərliyi qeyd edərək, sosial şəbəkələrdə bu barədə çoxsaylı şərhlər yazıb.

Beləliklə, həm açıqlaması, həm də dünya ulduzuna bənzərliyi ilə Deniz Durmaz yenidən diqqət mərkəzinə düşməyi bacarıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**